# Böyük qələbədə payı olan igidlər

***1988-1989-cu illərdə özlərinin güclü hamilərinə arxalanan ermənilər 250 mindən çox azərbaycanlını Ermənistan ərazisindəki dədə-baba torpaqlarından deportasiya etdi. Bu deportasiyaya məruz qalanlardan biri də Məhərrəmovlar ailəsi oldu. Bundan sonra Məhərrəmovlar Gəncə şəhərində məskunlaşaraq digər həmvətənləri kimi çətin günlər yaşamalı oldu.***

Lakin erməni separtaçılarının məqsədi yalnız Ermənistan daxilində etnik təmizlənmə ilə məhdudlaşmadı. Onlar Azərbaycanın ərazi bütövlüyünə yeni qəsdlərlə bağlı tədbirlər planı hazırlamışdılar. 1989-cu ildən etibarən ermənilər sovet ordusunun dəstəyi ilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin azərbaycanlıların yaşadığı kənd və şəhərlərə ardıcıl hücumlara başlayırlar. Həmin çətin illərdə könüllü olaraq torpaqların müdafiəsinə qoşulan gənclərdən biri də erməni vandalizmini öz gözləri ilə görmüş və dədə-baba yurdundan qaçqın düşmüş 26 yaşlı Elçin Məhərrəmov idi.

Onun gözəl arzuları vardı: ali təhsil almaq, karyera qurmaq və ailəsinin adına layiq övlad olaraq Azərbaycana baş ucalığı gətirmək. Qeyd edək ki, Məhərrəmovlar ailəsinin bir çox gəncləri həmin dövrdə istər respublikada, istərsə də xaricdə təhsil alaraq müxtəlif sahələrdə öz bilik və bacarıqlarını Azərbaycanın inkişafına həsr edirdilər. Elçin də müharibədən sonra arzularını reallaşdırmaq istəyirdi…

Amma dəhşətli müharibə onun kimi minlərlə gəncin arzularını yarımçıq qoydu. Elçin münaqişənin ilk vaxtlarında Gəncədə əvvəlcə sürücü kimi işləməyə başlasa da, sonra nəqliyyat idarəsində inzibati işlərə cəlb olunur, müxtəlif rayonlarda təchizatla, loqistika işləri ilə məşğul olur. 1991-ci ildə isə könüllü olaraq cəbhəyə yollanır.

Elçinin ilk döyüş yolu Çaykənddən başlayır. Sonra onun Todan kəndindən keçən döyüş yolu Qarabağın müxtəlif yaşayış məntəqələrini əhatə edir. Mahir Hüseynovun başçılıq etdiyi batalyonda Elçin Məhərrəmov Çıldıran, Qaçaqot, Drmbon, Mehmanə kimi



neçə kənd və qəsəbənin müdafiəsində yaxından iştirak edir, düşmən ordusuna ağır zərbələr vurur. O, həm də hərbi texnikanın idarə olunması, təchizatı və loqistika işlərində də öz bilik və bacarığını əsirgəmir.

O, təkcə döyüş meydanında hünər göstərmir, həm də idarə etdiyi “ZİL-131” markalı maşınla digər batalyonlara hərbi sursat və ərzaq məhsullarının çatdırılmasında yardım göstərirdi. Bütün tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirirdi.

Lakin Elçin 1991-ci il noyabrın 12-də Drmbon ərazisində Qozlu körpü istiqamətində hərbi sursatları və digər ləvazimatları batalyona çatdırarkən pusquya düşür və sona qədər döyüşərək şəhid olur.

Həmin ayın 29-da Elçinin toyu olmalı idi. Amma o, ön cəbhədə həyatını göz qırpmadan Vətənə fəda etdi.

30 ilə yaxın davam edən işğal 44 günlük müharibə ilə sona yetdi. Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı ilə müzəffər Azərbaycan ordusu erməni faşistlərini məhv edərək ərazi bütövlüyümüzü bərpa etdi. Artıq Elçin Məhərrəmov kimi Vətən yolunda şəhid olan igid Azərbaycan oğullarının ruhu şaddır. Qisas alındı, düşmən məhv edildi.

Allah tarixi qələbədə payı olan bütün şəhidlərimizə rəhmət eləsin!

***“Xalq qəzeti”***